№ 13-14 (845) 31 iyul 2026-cı il ○ Qəzet 1991-ci ildən nəşr olunur ○ www.health.gov.az; ○ www.tibbqazeti.az

# TİBB qəzeti

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi



«Tibbi sığorta haqqında» Qanuna dəyişikliklər edildi

2



«Psixiatriya yardımı haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

3



Nazirlər Kabineti donor orqanları ilə bağlı iki Qərar qəbul edib

3

## Birinci xanım Mehriban Əliyeva Çolpon-Ata şəhərində «Altın-Balalık» sağlamlıq və reabilitasiya mərkəzi ilə tanış olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğızıstana dövlət səfəri çərçivəsində Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Çolpon-Ata şəhərində Qırğız Respublikasının birinci xanımı Ayqul Japarova və Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva ilə birlikdə «Altın-Balalık» sağlamlıq və reabilitasiya mərkəzi ilə tanış olub.

4



## Baş nazir Əli Əsədov Rusiyanın səhiyyə naziri ilə görüşüb

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Rusiya Federasiyasının səhiyyə naziri Mixail Muraşko ilə görüşüb. Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib ki, görüşdə İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının növbəti məzun buraxılışının əhəmiyyəti vurğulanıb.

Səh. 5

## Azərbaycan səhiyyə sistemi rəqəmsallaşma və keyfiyyət standartları əsasında yenilənir

Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev Azərbaycan Televiziyasının «Hədəf» proqramına və Trend Beynəlxalq İnformasiya Agentliyinə birgə müsahibə verib. «Tibb qəzeti» Trend.az saytına istinadən müsahibənin mühüm məqamlarını təqdim edir.



Səh. 6-7

## Səhiyyə naziri ATU məzunlarını təbrik edib



Azərbaycan Tibb Universitetində (ATU) məzun günü keçirilib.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Məzun günündə dövlət və ictimaiyyət nümayəndələri, Milli Məclisin üzvləri, səhiyyə işçiləri, universitetin professor-müəllim heyəti, tələbələr və valideynlər iştirak ediblər.

9

## Azərbaycan və Rusiya səhiyyə nazirləri əməkdaşlığın inkişafını müzakirə ediblər



...Rusiya Federasiyasının səhiyyə naziri Mixail Muraşko ölkələr arasında səhiyyə sahəsində əməkdaşlığın inkişafına böyük önəm verdiklərini bildirib. O qeyd edib ki, təcrübə mübadiləsi, birgə elmi-praktik layihələrin həyata keçirilməsi və mütəxəssislər arasında əməkdaşlıq hər iki ölkənin səhiyyə sisteminin inkişafına mühüm töhfə verəcək.

10

# «Tibbi sığorta haqqında» Qanuna dəyişikliklər edildi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Məclisin qəbul etdiyi ««Tibbi sığorta haqqında» və «Əlilliyi olan şəxslərin hüquqları haqqında» Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının Qanununu imzalayıb.**



Yeni Qanuna əsasən, «Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanununa icbari tibbi sığorta fondunu şərh edən 1.1.18-ci maddə əlavə olunub. Bildirilir ki, icbari tibbi sığorta fondu dövlətin mülkiyyətində olan, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən idarəçiliyi həyata keçirilən və dövlət büdcəsindən kənar müstəqil büdcəyə malik olan məqsədli dövlət maliyyə fondudur.

15-3.5-ci maddədə «icbari tibbi sığorta üzrə məlumat bazasına (elektron informasiya ehtiyatına)» sözləri «bu Qanunun 15-27-ci maddəsində nəzərdə tutulan informasiya sisteminə» sözləri ilə əvəz edilib. Həmçinin 15-13.1-ci maddədə «müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) elektron» sözləri «bu Qanunun 15-27-ci maddəsində nəzərdə tutulan» sözləri ilə əvəz olunub.

Dəyişikliklərə əsasən, Qanunun 15-27-ci maddəsi aşağıdakı redaksiyada verilir:

«Maddə 15-27. İcbari tibbi sığortanın tətbiqi ilə bağlı əməliyyatların elektron qaydada həyata keçirilməsi

İcbari tibbi sığortanın tətbiqi ilə bağlı əməliyyatlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.».

Yeni Qanuna əsasən, «Əlilliyi olan şəxslərin hüquqları haqqında» Azərbaycan Respublikası Qanununun 1.0.17-ci maddəsindən «və reabilitasiya imkanlarının» sözləri çıxarılıb.

Dövlət başçısı ««Tibbi sığorta haqqında» və «Əlilliyi olan şəxslərin hüquqları haqqında» Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 464-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bir sıra fərmanlarında dəyişiklik edilməsi haqqında» Fərman da verib.

Sənəddə yeni Qanunun qüvvəyə minməsi ilə əlaqədar onun tətbiqini təmin etmək məqsədilə qərara alınıb ki, «Tibbi sığorta haqqında» Qanunun 1.1.18-ci və 15-27-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir. Həmin Qanunun 15-27-ci maddəsində «orqan (qurum)» dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, 1.1.18-ci maddəsində isə Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.

Fərmana əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemində 2027-ci il yanvarın 1-dək «İcbari tibbi sığorta» altsistemi yaradılacaq.

Nazirlər Kabinetinə Qanunun icrası ilə bağlı bəzi məsələlər tapşırılıb.

Həmçinin «Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1441-VQD nömrəli Qanununun tətbiqi və «Tibbi sığorta haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanının ləğv edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 31 yanvar tarixli 502 nömrəli Fərmanında müəyyən dəyişikliklər edilib. O cümlədən, sənəd boyunca «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri «Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi» sözləri ilə əvəz olunub.

Fərmana əsasən, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə»də müvafiq dəyişikliklər olunaraq «İcbari tibbi sığorta» altsistemi haqqında bəndlər əlavə edilib.




## «Psixiatriya yardımı haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2026-cı il 13 iyul tarixli 444-VIIQD nömrəli Qanununun tətbiqi və «Psixiatriya yardımı haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 574 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

***Azərbaycan Respublikası Prezidentinin Fərmanı***

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, «Psixiatriya yardımı haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2026-cı il 13 iyul tarixli 444-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. «Psixiatriya yardımı haqqında» Azərbaycan Respublikası Qanununun 17.2.5-ci, 17.4-cü, 19.2-1-ci, 24.2-1-ci maddələrində və 25.1-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 24.2-1-ci maddəsində «orqan (qurum)» dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 17.2.5-ci, 17.4-cü, 19.2-1-ci maddələrində və 25.1-ci maddəsinin ikinci cümləsində «orqan (qurum)» dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. «Psixiatriya yardımı haqqında» Azərbaycan Respublikası Qanununun 24.2-1-ci maddəsinə uyğun olaraq, psixiatriya müəssisəsində məcburi hospitallaşdırma (tibbi xarakterli məcburi tədbirlər) zamanı rejim qaydalarını və təhlükəsizlik tədbirlərinin hədlərini üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. «Psixiatriya yardımı haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2026-cı il 13 iyul tarixli 444-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**3.** «Psixiatriya yardımı haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 574 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 589 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. ikinci abzasa «(ikinci halda)» sözlərindən sonra «, 17.2.5-ci, 17.4-cü, 19.2-1-ci, 24.2-1-ci maddələrində və 25.1-ci maddəsinin ikinci cümləsində» sözləri əlavə edilsin;

3.2. dördüncü - yeddinci abzaslar müvafiq olaraq beşinci - səkkizinci abzaslar hesab olunsun və aşağıdakı məzmunda dördüncü abzas əlavə edilsin:

«həmin Qanunun 24.2-1-ci maddəsində «orqan (qurum)» dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;»;

3.3. səkkizinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda doqquzuncu abzas əlavə edilsin:

«həmin Qanunun 17.2.5-ci, 17.4-cü, 19.2-1-ci maddələrində və 25.1-ci maddəsinin ikinci cümləsində «orqan (qurum)» dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur.».

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 23 iyul 2026-cı il*

# «Psixiatriya yardımı haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikasının Qanunu*

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

«Psixiatriya yardımı haqqında» Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, №9, maddə 569 (Cild I); 2024, №5 (I kitab), maddə 503, №12 (II kitab), maddə 1350) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 7-ci maddə üzrə:

1.1. 7.2-ci maddənin birinci cümləsinə «edilir» sözündən sonra «və elektron sağlamlıq kartı sistemində saxlanılır» sözləri əlavə edilsin;

1.2. 7.5-ci maddə üzrə:

1.2.1. birinci cümlə aşağıdakı redaksiyada verilsin:

«Psixiatriya yardımı alan və ya əvvəllər psixiatriya yardımı almış şəxsə göstərilən yardım tədbirləri barədə məlumatlar şəxsin özü tərəfindən elektron sağlamlıq kartı sistemindən əldə edilir.»;

1.2.2. ikinci cümlə üçüncü cümlə hesab edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

«Həmin şəxsin qanuni nümayəndəsinə qeyd olunan məlumatlar onun yazılı müraciətindən sonra 2 iş günü ərzində müəssisənin müdiriyyəti tərəfindən təqdim olunur.».

**2.** 10.2-ci maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

«Müalicədən imtina edilməsi ilə bağlı məlumatlar elektron sağlamlıq kartı sisteminə daxil edilir.».

**3.** Aşağıdakı məzmunda 12.4-cü maddə əlavə edilsin:

«12.4. Tibbi xarakterli məcburi tədbirlərə cəlb edilən şəxslərin stasionar müalicəsi digər pasiyentlərdən təcrid olunmaqla aparılır.».

**4.** 17-ci maddə üzrə:

4.1. 17.2.4-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 17.2.5-ci maddə əlavə edilsin:

«17.2.5. bu Qanunun 19.2-1-ci maddəsində nəzərdə tutulmuş halda prokurorun və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) səlahiyyətli vəzifəli şəxsinin qərarı ilə.»;

4.2. aşağıdakı məzmunda 17.4-cü maddə əlavə edilsin:

«17.4. Psixiatriya müayinəsinin yekununa (diaqnoza) dair dərhal müayinə üçün müraciət etmiş şəxsə, prokurora və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verilir.».

**5.** 19-cu maddə üzrə:

5.1. 19.1-ci maddəyə «ərizə» sözündən sonra «(qərar)» sözü əlavə edilsin;

5.2. aşağıdakı məzmunda 19.2-1-ci maddə əlavə edilsin:

«19.2-1. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsə psixiatriya yardımının gecikdirilməsi onun özünün, yaxud başqa şəxslərin həyat və sağlamlığına təhlükə yaradarsa, şəxsin özünün və ya qanuni nümayəndəsinin razılığı olmadan psixiatriya müayinəsinin aparılması ilə bağlı qərar inzibati xətaya dair iş üzrə icraatı aparan prokuror və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) səlahiyyətli vəzifəli şəxsi tərəfindən qəbul edilir.»;

5.3. 19.3-cü maddənin ikinci cümləsinə «Ərizədə» sözündən sonra «(qərarda)» sözü əlavə edilsin;

5.4. 19.4-cü maddənin birinci cümləsinə «ərizədə» sözündən sonra «(qərarda)» sözü əlavə edilsin;

5.5. 19.5-ci maddəyə «ərizəni» sözündən sonra «(qərarı)» sözü əlavə edilsin.

**6.** Aşağıdakı məzmunda 24.2-1-ci maddə əlavə edilsin:

«24.2-1. Məcburi hospitallaşdırma (tibbi xarakterli məcburi tədbirlər) zamanı pasiyentin özü və ya digər şəxslər üçün bilavasitə təhlükə doğuran hərəkətlərinin qarşısının alınması məqsədilə psixiatriya müəssisəsində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən hədlərdə rejim qaydaları və təhlükəsizlik tədbirləri təmin edilir.».

**7.** 25.1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

«Psixi pozuntu vəziyyətində olan şəxsin məhkəmənin qərarına qədər qeyri-könüllü psixiatriya stasionarına yerləşdirilməsi haqqında həkim-psixiatrın qərarı barədə müvafiq psixiatriya müəssisəsinin rəhbəri dərhal həmin şəxsin yaxın qohumlarına və ya qanuni nümayəndələrinə, prokurora və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) səlahiyyətli vəzifəli şəxsinə məlumat verməlidir.».

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 13 iyul 2026-cı il*

# Dövlət başçısı səhiyyə nazirinə yeni müavin təyin etdi



**Azərbaycan Respublikası Prezidenti İlham Əliyev «Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə»də dəyişiklik edilməsi barədə» Fərman imzalayıb.**

Sənədə əsasən, Əsasnamənin 13-cü bəndinin birinci abzasında «üç» sözü «dörd» sözü ilə əvəz edilib.

Beləliklə, səhiyyə nazirinin müavinlərinin sayı artırılaraq dörd olub.

Səhiyyə Nazirliyinin mətbuat xidmətinin verdiyi məlumata görə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə Rüfət Cahangir oğlu Hacıəlibəyov səhiyyə nazirinin müavini təyin edilib.

Məlumatda bildirilir ki, 2022-ci ilin iyul ayından Azərbaycan Respublikasının səhiyyə nazirinin səhiyyənin rəqəmsallaşdırılması məsələləri üzrə müşaviri vəzifəsində çalışan Rüfət Hacıəlibəyov bu müddət ərzində ölkənin elektron səhiyyə üzrə milli strategiyasının hazırlanmasına və həyata keçirilməsinə rəhbərlik edib, səhiyyə sisteminin rəqəmsal transformasiyası prosesinin əlaqələndirilməsi ilə məşğul olub. Səhiyyə nazirinin müavini kimi onun fəaliyyət istiqamətlərinə innovasiyaların tətbiqi, strateji idarəetmə, səhiyyənin rəqəmsallaşdırılması və tibbi statistika sahələri daxildir.

Qeyd olunur ki, Rüfət Hacıəlibəyov rəqəmsal transformasiya sahəsində 30 illik peşəkar təcrübəyə malik mütəxəssisdir. Uzunmüddətli fəaliyyəti ərzində korporativ və dövlət sektoru üçün mürəkkəb texnoloji layihələrin idarə edilməsi sahəsində çalışıb, Azərbaycanda aparıcı qlobal informasiya texnologiyaları şirkətlərinin yerli nümayəndəliklərinə rəhbərlik edib.

# İnzibati Xətalar Məcəlləsində narkoloji xidmətlə bağlı dəyişiklik edildi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Məclisin qəbul etdiyi «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında» Qanunu imzalayıb.**

Sənədə əsasən, İnzibati Xətalar Məcəlləsinə narkotiklərlə mübarizə sahəsində bir neçə maddə əlavə edilib. O cümlədən, 192.13-cü və 192.14-cü maddələr işə qəbul zamanı narkoloji tibbi müayinə tələb olunan hallarla bağlıdır:

«192.13. Tibbi müayinə (tibbi yoxlama) haqqında rəyə əsasən narkoloji xəstə olan şəxslə siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən narkoloji xəstələr üçün fəaliyyət məhdudiyyəti nəzərdə tutulmuş peşə növlərinə və vəzifələrə işə qəbul edilməsi ilə bağlı əmək müqaviləsinin bağlanılmasına və ya əmək münasibətlərinin davam etdirilməsinə görə -

vəzifəli şəxslər üç min manat məbləğində cərimə edilir.

192.14. Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş hallarda işçinin sağlamlığı haqqında tibbi arayış, habelə narkoloji xəstələr üçün fəaliyyət məhdudiyyəti nəzərdə tutulmuş peşə növlərinə və vəzifələrə işə qəbul edilərkən tibbi müayinə (tibbi yoxlama) haqqında rəy olmadan işçinin müvafiq peşə və ya vəzifəyə işə qəbul edilməsinə görə -

vəzifəli şəxslər min manat məbləğində cərimə edilir».

# Nazirlər Kabineti donor orqanları ilə bağlı iki Qərar qəbul edib

**Azərbaycan Respublikası Nazirlər Kabineti özünün 2021-ci il 20 avqust tarixli 234 nömrəli Qərarı ilə təsdiq edilmiş «Donor orqanların transplantasiyasını həyata keçirən ixtisaslaşdırılmış tibb müəssisələrinin Siyahısı»nda dəyişiklik edilməsi haqqında Qərar qəbul edib.**

Yeni sənədə əsasən, həmin Siyahının ikinci sətrinə «qaraciyər» sözündən əvvəl «ürək» sözü əlavə olunub. Yeddinci sətirdə isə «Müalicəvi» sözü çıxarılıb və «sümük iliyi» sözlərindən sonra «kök hüceyrələri» sözləri əlavə edilib.

Baş nazir Əli Əsədov Nazirlər Kabinetinin 2021-ci il 20 avqust tarixli 235 nömrəli Qərarı ilə təsdiq olunmuş «Donor orqanların götürülməsi, hazırlanması, saxlanması, daşınması, idxalı və ixracını həyata keçirən tibb müəssisələrinin Siyahısı»nda dəyişiklik edilməsi haqqında Qərar da imzalayıb.

Bu sənədə əsasən, müvafiq Siyahıda ikinci sətrə «qaraciyər» sözündən əvvəl «ürək» sözü əlavə edilib, yeddinci sətirdən «Müalicəvi» sözü çıxarılıb və həmin sətrə «sümük iliyi» sözlərindən sonra «kök hüceyrələri» sözləri əlavə olunub.

# Birinci xanım Mehriban Əliyeva Çolpon-Ata şəhərində «Altın-Balalık» sağlamlıq və reabilitasiya mərkəzi ilə tanış olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğızıstana dövlət səfəri çərçivəsində Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Çolpon-Ata şəhərində Qırğız Respublikasının birinci xanımı Ayqul Japarova və Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva ilə birlikdə «Altın-Balalık» sağlamlıq və reabilitasiya mərkəzi ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, «Altın-Balalık» sağlamlıq və reabilitasiya mərkəzi 2022-ci ilin mayından fəaliyyət göstərir. Müəssisənin əsas məqsədi uşaqlara yüksəkkeyfiyyətli tibbi-reabilitasiya xidməti göstərmək və onların istirahətini təmin etməkdir.







Mərkəzdə 800 çarpayılıq 136 otaq var. Hər il yay tətili dövründə Qırğızıstanın bütün bölgələrindən və qonşu ölkələrdən 8000-8500 uşaq burada fəaliyyət göstərən yay düşərgəsində istirahət edir. Mərkəz hər ilin sentyabrından isə növbəti ilin iyununadək reabilitasiya üçün əlilliyi olan uşaqları qəbul edir.

# Milli Məclis səhiyyə qanunvericiliyinə dəyişikliklər etdi

Milli Məclisin növbədənkənar sessiyasının son iclaslarında səhiyyə ilə bağlı bəzi məsələlərə baxılıb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, növbədənkənar sessiyanın növbəti iclasında Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov «Psixiatriya yardımı haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib.

Komitə sədri qanun layihəsinin birinci oxunuşda geniş müzakirə olunaraq, yekdilliklə qəbul edildiyini söyləyib. O, müzakirələr zamanı deputatlar tərəfindən bəzi təkliflərin verildiyini və onların nəzərdən keçirildiyini deyib, səsləndirilən fikirlərə münasibət bildirib və sənədin dəstəklənməsini xahiş edib.

Sənəddə psixi pozuntu vəziyyətində olan şəxsin özünün, habelə başqa şəxslərin sağlamlığını və təhlükəsizliyini təmin etmək məqsədilə sözügedən Qanuna 19.2-1-ci və 17.4-cü maddələrin əlavə edilməsi təklif olunur. Habelə psixi pozuntu vəziyyətində olan şəxslərin və ya onların qanuni nümayəndəsinin razılığı olmadan psixiatriya müayinəsinin aparılması ilə bağlı Qanuna yeni 17.2.5-ci maddənin əlavə edilməsi təklif olunur.

Bununla yanaşı, layihədə psixi pozuntusu olan şəxsin sağlamlığının vəziyyəti və ona göstərilən psixiatriya yardımı tədbirləri haqqında məlumatların elektron sağlamlıq kartı sistemində saxlanılması, həmin şəxsə göstərilən yardım tədbirləri barədə məlumatların şəxsin özü tərəfindən elektron sağlamlıq kartı sistemindən əldə edilməsi, onun qanuni nümayəndəsinə isə qeyd olunan məlumatların onun yazılı müraciətindən sonra 2 iş günü ərzində müəssisənin müdiriyyəti tərəfindən təqdim olunmasına dair müvafiq müddəaların əlavə edilməsi nəzərdə tutulur.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov məlumat verib. Bildirib ki, təklif olunan dəyişikliklər Milli Məclisdə müzakirədə olan müvafiq qanun layihələrində nəzərdə tutulan normalara və təkmilləşdirmələrə uyğun hazırlanıb. Məruzəçi layihədə inzibati xəta törətmiş psixi problemi olan şəxsə psixiatriya müayinəsi və yardımı ilə bağlı, həmçinin digər sahələrdə inzibati məsuliyyət normalarının dəqiqləşdirilməsi ilə bağlı dəyişiklikləri diqqətə çatdırıb.

Layihə barədə deputat Nizami Səfərovun fikirləri dinlənildikdən sonra sənəd səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

«Tibbi sığorta haqqında» və «Əlilliyi olan şəxslərin hüquqları haqqında» qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) haqqında Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov məlumat verib. O bildirib ki, qanun layihəsi Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 631 nömrəli "Əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Fərmanının icrası məqsədilə hazırlanıb. Qeyd olunub ki, qanunvericiliyə icbari tibbi sığorta fondu anlayışı əlavə edilir, həmçinin icbari tibbi sığortanın tətbiqi ilə bağlı əməliyyatların vahid informasiya sistemi vasitəsilə elektron qaydada həyata keçirilməsinin hüquqi əsasları müəyyən olunur. Dəyişikliklərə əsasən, xəstələrin ambulator müalicəsi üçün icbari tibbi sığorta ilə qarşılanan dərman vasitələri apteklər tərəfindən həmin informasiya sisteminə ötürülmüş elektron resept əsasında buraxılacaq. Həmçinin icbari tibbi sığorta şəhadətnaməsinin elektron formada yaradılması nəzərdə tutulur.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev rəhbərlik etdiyi komitənin müsbət rəyini bildirəndən sonra qanun layihəsi birinci oxunuşda qəbul olunub.

Növbədənkənar sessiyanın növbəti iclasında Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov «Psixiatriya yardımı haqqında» Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Komitə sədri qanun layihəsinin ikinci oxunuşundan sonra sənədin mətni ilə bağlı komitəyə rəy və təklifin daxil olmadığını diqqətə çatdırıb və layihənin üçüncü oxunuşda da dəstəklənməsini xahiş edib.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verib.

Qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

Parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov «Tibbi sığorta haqqında» və «Əlilliyi olan şəxslərin hüquqları haqqında» qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Komitə sədri qanun layihəsi ilə bağlı əlavə rəy və təklifin daxil olmadığını deyib və onun dəstəklənməsini xahiş edib.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev qanun layihəsi barədə rəhbərlik etdiyi komitənin müsbət rəyini diqqətə çatdırıb. Deputat Vüqar Bayramov məsələ ilə bağlı bəzi fikir və təkliflərini səsləndirdikdən sonra, qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

Milli Məclisin növbədənkənar sessiyasının sonuncu iclasında İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi və «Tibbi sığorta haqqında» və «Əlilliyi olan şəxslərin hüquqları haqqında» qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi ayrı-ayrılıqda təqdim olunub, müzakirə edilib və səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

# Nazirlər Kabineti süni intellektin inkişafı üzrə milli prioritet sektorları müəyyən etdi

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun imzası ilə Nazirlər Kabineti «Süni intellektin inkişafı üçün milli prioritet sektorların və müvafiq sektor üzrə məsul dövlət orqanlarının (qurumlarının) siyahısı»nın təsdiq edilməsi haqqında Qərar qəbul edib.**

Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 mart tarixli 530 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası»nın həyata keçirilməsi üzrə Tədbirlər Planı»nın 8.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə təsdiqlənən siyahıda süni intellektin inkişafı üçün milli prioritet olan sektorlardan biri «Səhiyyə» sektorudur.

Bu sektor üzrə məsul dövlət orqanlarının (qurumlarının) siyahısına Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi daxil edilib.

# Baş nazir Əli Əsədov Rusiyanın səhiyyə naziri ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Rusiya Federasiyasının səhiyyə naziri Mixail Muraşko ilə görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib ki, görüşdə İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının növbəti məzun buraxılışının əhəmiyyəti vurğulanıb.

Yüksəkixtisaslı tibb kadrlarının hazırlanmasında mühüm rol oynayan filial Azərbaycan - Rusiya əməkdaşlığının uğurlu nümunələrindən biri kimi dəyərləndirilib.

Görüş zamanı Azərbaycan ilə Rusiya arasında səhiyyə, tibb təhsili və tibb elmi sahələrində qarşılıqlı faydalı əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Görüşdə Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru Pyotr Qlıboçko və universitetin Bakı filialının rektoru Əziz Əliyev iştirak ediblər.

# Nazirlər Kabineti «Tibb müəssisələrinin akkreditasiyası Qaydası»nda dəyişikliklər etdi



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov «Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 7 noyabr tarixli 447 nömrəli Qərarı ilə təsdiq edilmiş «Tibb müəssisələrinin akkreditasiyası Qaydası»nda dəyişiklik edilməsi haqqında» Nazirlər Kabinetinin Qərarını imzalayıb.**

«Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 may tarixli 62 nömrəli Fərmanının 4.1-ci bəndinin icrasını təmin etmək məqsədilə qəbul edilmiş Qərara əsasən, «Tibb müəssisələrinin akkreditasiyası Qaydası» yeni redaksiyada təsdiqlənib.

Qərarda Səhiyyə Nazirliyinə tapşırılır ki, yeni redaksiyada verilən Qaydanın 1.2.3-cü yarımbəndində və 4.4-cü, 4.18-ci, 4.26-cı bəndlərində nəzərdə tutulan normativ hüquqi aktları doqquz ay müddətində təsdiq etsin və onların Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi barədə Nazirlər Kabinetinə məlumat versin, həmçinin bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

Yeni redaksiyada «Tibb müəssisələrinin akkreditasiyası Qaydası» 2028-ci il yanvarın 1-dən qüvvəyə minəcək.

# Şimali Kipr Türk Cümhuriyyətinin səhiyyə naziri Milli Məclisdə olub



**Milli Məclisin Şimali Kipr Türk Cümhuriyyəti ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Beynəlxalq Səhiyyə Menecmenti Konqresində iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Şimali Kipr Türk Cümhuriyyətinin səhiyyə naziri Hakan Dinçyürek və bu ölkə Məclisinin üzvü Ahmet Savaşan ilə görüşüblər.**

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirildiyinə görə, Milli Məclisin Şimali Kipr Türk Cümhuriyyəti ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Cavanşir Feyziyev ölkələrimiz arasında münasibətlərin qarşılıqlı etimad, dostluq və qardaşlıq prinsipləri əsasında bütün istiqamətlər üzrə uğurla inkişaf etdiyini deyib.

Vurğulanıb ki, bu gün səhiyyə sahəsi iki ölkə arasında əməkdaşlıq üçün böyük potensiala malik istiqamətlərdən biridir. Bildirilib ki, tibb mütəxəssislərinin qarşılıqlı səfərləri, peşəkar təcrübə mübadiləsi, birgə elmi-tibbi layihələrin həyata keçirilməsi və müasir səhiyyə idarəçiliyi sahəsində əməkdaşlığın genişləndirilməsi hər iki tərəf üçün faydalı nəticələr verə bilər.

Şimali Kipr Türk Cümhuriyyətinin səhiyyə naziri Hakan Dinçyürek gələcəkdə həyata keçiriləcək qarşılıqlı təcrübə mübadiləsi və birgə təşəbbüslərin səhiyyə sahəsində əlaqələrin daha da möhkəmlənməsinə mühüm töhfə verəcəyini söyləyib.

Görüşdə Milli Məclisin Şimali Kipr Türk Cümhuriyyəti ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Musa Quliyev, Jalə Əliyeva, Hikmət Məmmədov və Azər Allahverənov, həmçinin Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin üzvü Ahmet Savaşan çıxış edərək ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsinin əhəmiyyətini vurğulayıblar.

Çıxışlarda parlamentlərarası əməkdaşlığın genişləndirilməsi, qarşılıqlı səfərlərin intensivləşdirilməsi, iqtisadiyyat, investisiya və turizm sahələrində əməkdaşlığın inkişafı üçün mövcud potensialdan səmərəli istifadə edilməsinin vacibliyi qeyd olunub.

# Yeni növ koronavirus xəstələrinə yardım göstərən tibb işçilərinin əməkhaqlarına əlavənin müddəti uzadıldı

Azərbaycan Respublikası Nazirlər Kabineti «Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında Qərar qəbul edib.

Sənədə əsasən, həmin qəbildən olan tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müddəti oktyabr ayınadək uzadılıb.

**Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev Azərbaycan Televiziyasının «Hədəf» proqramına və Trend Beynəlxalq İnformasiya Agentliyinə birgə müsahibə verib. «Tibb qəzeti» Trend.az saytına istinadən müsahibənin mühüm məqamlarını təqdim edir.**

# Azərbaycan səhiyyə sistemi rəqəmsallaşma

## Səhiyyə naziri Teymur Musayev mediaya geniş müsahibə verib



### Tibb müəssisələrinin akkreditasiyası yeni tibbi xidmət mədəniyyəti formalaşdırır

Səhiyyə naziri bildirib ki, Prezident İlham Əliyevin 15 may 2024-cü il tarixli Fərmanı ilə Səhiyyə Nazirliyinin tabeliyində Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzi yaradılıb. Onun əsas məqsədi tibb müəssisələrində əhaliyə göstərilən tibb xidmətlərinin təhlükəsizliyinin təmin edilməsi, onların keyfiyyətinin davamlı şəkildə artırılmasıdır. Teymur Musayev bu sahədə fəaliyyətin bir neçə komponentdən ibarət olduğunu deyib: «Bu, ilk növbədə, həmin tibb müəssisəsinin quruluşu, orada istifadə olunan standartlar, həmin standartlara riayət olunub-olunmamasıdır. Orada baş verən tibbi proseslərin axınına nəzarətdir. İstifadə olunan dərman vasitələrinin keyfiyyətinə, düzgün istifadəsinə nəzarətdir. Tətbiq olunan cərrahiyyə əməliyyatlarında tibbi prosedurların və müalicə üsullarının standartlara uyğun olub-olmamasına nəzarətdir. Orada işləyən tibbi personalın bilik, bacarıq və metodlara düzgün riayət edib-etməməsidir. Bunların hamısı kompleksdə tibb müəssisəsinin müasir tibbi standartlara uyğun olub-olmamasını göstərir.

Bununla bağlı dünyada müxtəlif yanaşmalar var. Elə ölkələr var ki, orada dövlətin tibb müəssisələrinin akkreditasiyası və keyfiyyətə nəzarət üzrə institusional qurumu yoxdur. Onlar bunu sadəcə müxtəlif özəl şirkətlər üzərindən qururlar. Digər yanaşma məhz bizim ölkəmizdə qəbul olunandır. Bu, dövlətçilik baxımından, əhalini qeyri-standart, yəni heç bir müasir standartlara uyğun olmayan tibbi prosedurlardan qorumaq məqsədilə ən ciddi yanaşmadır. Hazırda yaradılmış qurum əsaslı şəkildə bu proseslərin təminedici altsistemlərini hazırlayır. Buraya müalicə üsullarının və metodların yer aldığı xəstəliklər üzrə protokolların hazırlanması, digər tərəfdən, tibb mütəxəssislərinin bilik və vərdişlərinin qiymətləndirilməsi prosesinin standartlaşdırılması daxildir. Xəstəxana daxili gedən proseslərin standartlar üzərindən qurulması və keyfiyyətinə nəzarət də bu istiqamətin tərkib hissəsidir.

İlkin baxışda bu yalnız yoxlama və hansısa inzibati tədbirlərin görülməsi kimi görünür. Amma bu belə deyil. Azərbaycanda tibb müəssisələrinin akkreditasiyası yeni tibbi xidmət mədəniyyətinin bərqərar olması üçün yaradılır. Yəni bu yalnız dəstək məqsədlidir. Dəstəyin də əsas hədəfi pasiyent təhlükəsizliyidir. Pasiyent təhlükəsizliyi dedikdə sonda hər bir vətəndaşın təhlükəsizliyi nəzərdə tutulur. Bu o qədər multidissiplinar və multiinstitusional yanaşmadır ki, tək bu mərkəzin işi deyil. Həmçinin Səhiyyə Nazirliyinin digər qurumları var ki, hamısı bir nöqtəyə yığışaraq məhz Azərbaycan vətəndaşının tibb müəssisəsində aldığı tibbi xidmətin ona təhlükəsiz və keyfiyyətli olmasını təmin etmək üçün fəaliyyət göstərir».

Nazir əlavə edib ki, bu istiqamətdə koordinasiya prosesləri artıq həyata keçirilir, onlar standart proses idarəetməsi baxımından aparılır və rəqəmsallaşdırılır: «Az müddətdən sonra bütün proseslərin rəqəmsallaşdırılaraq vahid rəqəmsal səhiyyə ekosisteminə inteqrasiya ediləcəyinə hazırlıq gedir. Təbii ki, Azərbaycan vətəndaşı lisenziya qazanmış, akkreditasiyadan keçmiş istənilən tibb müəssisəsinin qapısını açanda tam əminliklə öz sağlamlığını oradakı həkimlərə və tibb işçilərinə etibar edə biləcək».

### Tibb işçilərinin sertifikasiyası cəza mexanizmi deyil

Teymur Musayev cəmiyyətdə geniş müzakirə olunan tibb mütəxəssislərinin sertifikasiyası prosesi barədə sualı cavablandırarkən deyib ki, sertifikasiya cəza və ya təzyiq mexanizmi kimi qiymətləndirilməməlidir. Bu prosesin əsas məqsədi tibb işçilərinin davamlı peşəkar inkişafını təmin etmək və əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətini yüksəltməkdir: «Səhiyyə Nazirliyinin bu sahədə mövqeyi daim bir olub - Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən tibb işçisini layiqli davamlı tibbi təhsillə təmin etmək, davamlı peşəkar inkişaf imkanları yaratmaq və nəticə etibarilə, vətəndaşlarımıza göstərilən tibbi xidmətin yüksək keyfiyyətdə təmin edilməsinə zəmanət vermək əsas məqsədimizdir.

Sertifikasiya imtahanı özlüyündə hansısa cəza və ya basqı məqamı deyil. Təbii ki, elə insanlar var ki, imtahana girməkdən çəkinirlər, psixoloji çətinlikləri olur, bunu da anlayırıq. Ancaq sertifikasiya imtahanı ilə bağlı tibb işçiləri arasında ən qızğın müzakirələrin getdiyi dövrdə belə, imtahandan keçid faizi 97 faiz idi. Yəni səs-küy onun mahiyyətindən daha çox idi.

Aydındır ki, hər beş ildən bir imtahan keçirməklə hər bir insanın bilik və bacarıqlarını qiymətləndirmək mümkündür, onları artırmaq isə mümkün deyil. Buna görə Səhiyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanı olaraq və Azərbaycan Respublikası vətəndaşlarının sağlamlığının qorunması istiqamətində lazımi tədbirlərin görülməsini əsas götürərək yeni təşəbbüslə çıxış etdi. Bu yaxınlarda «Əhalinin sağlamlığının qorunması haqqında» Qanuna dəyişikliklər edildi. Həmin dəyişikliklərə əsasən, artıq beş ildən bir keçirilən imtahanla yanaşı, hər bir həkim və ya tibb işçisi seçim edə biləcək. Onlar beş il ərzində Davamlı Peşəkar İnkişaf proqramı üzrə ümumilikdə 250 kredit balından az olmayaraq toplamaqla da həmin sertifikatı əldə edə biləcəklər».

Teymur Musayev bildirib ki, Səhiyyə Nazirliyi tərəfindən sertifikasiya sual bazası da mütəmadi yenilənir və yaxın vaxtlarda bu istiqamətdə yeni rəqəmsal həll istifadəyə veriləcək: «Sual bazasına daha müasir yanaşmalar, müasir müalicə metodlarına dair məlumatlar daxil edilir. Bu yaxınlarda bu istiqamətdə də rəqəmsal yenilik olacaq.

Çox intensiv işlədiyinə görə, yaxud başqa səbəbdən davamlı olaraq hər il orta hesabla 50 kredit balı toplamağa vaxtı və ya imkanı olmayan, buna görə yalnız imtahan vermək istəyən mütəxəssislər üçün xüsusi tətbiq təqdim olunacaq, orada bütün sual bazası öz əksini tapacaq. Burada gizlədiləsi heç nə yoxdur. Biliyi gizlətmək düzgün deyil, əksinə, onu təbliğ etmək və yaymaq lazımdır. Sual toplusunda hər bir sualın düzgün cavabı göstəriləcək, eyni zamanda, onun akademik izahı təqdim olunacaq. Beləliklə, insanlar sadəcə hansı cavabın düzgün olduğunu deyil, məhz niyə həmin cavabın düzgün olduğunu da əlavə ədəbiyyat axtarmadan, tam akademik izahı ilə birlikdə görə biləcəklər».

Nazir bildirib ki, həkimlərin bilik və bacarıqlarının qiymətləndirilməsi sahəsində xarici təcrübədən də istifadə olunur: «Biz Amerikada tətbiq olunan məşhur Board Exam imtahan sisteminin 65 ixtisas üzrə sual toplusunu rəsmi şəkildə əldə etmişik. Onlar Azərbaycan dilinə tərcümə olunub və məhz həmin suallar əsasında imtahan bloku formalaşdırılır. Təbii ki, bizim kurikuluma uyğun suallar da əlavə olunub. Burada heç bir çətinlik yoxdur, əksinə, bu yalnız dəstəkləyici bir təminatdır».

Səhiyyə naziri mütəxəssislərin imtahanla yanaşı, Davamlı Peşəkar İnkişaf proqramlarına aktiv şəkildə qatılması və orada kredit balları toplayaraq yeni biliklərə və yeni yanaşmalara daha yaxın olması arzusunu ifadə edib.

### Tibbi Rəqəmsal Əkiz Sistemi Azərbaycanı rəqəmsal səhiyyə sahəsində qabaqcıl ölkələr sırasına çıxarıb

Teymur Musayev qeyd edib ki, rəqəmsallaşma bu gün, bütün sahələrdə olduğu kimi, səhiyyədə də prioritet istiqamətlərdən biridir və bu sahədə həyata keçirilən layihələr ölkənin səhiyyə sistemində yeni mərhələnin başlanğıcı hesab oluna bilər: «Səhiyyə Nazirliyi davamlı olaraq Azərbaycanda səhiyyə sisteminin rəqəmsallaşdırılmasını həyata keçirir. Bunun məntiqi nəticəsi olaraq ötən ayın 3-də Gülüstan Sarayında hökumət nümayəndələri və geniş tibbi ictimaiyyət üçün Tibbi Rəqəmsal Əkiz Sisteminin təqdimatı keçirildi.

Bildiyiniz kimi, rəqəmsal texnologiyalar və süni intellekt bu gün, demək olar ki, bütün peşə sahiblərinin fəaliyyətini tamamilə dəyişib. Bu ümumi landşaftın ayrılmaz hissəsi olan səhiyyə də rəqəmsallaşma prosesinin aktiv iştirakçısıdır.

Rəqəmsallaşma təkcə texniki tətbiqlərin və ya proqram təminatlarının tətbiqi deyil, bu, yeni səhiyyə mədəniyyəti deməkdir. Bu baxımdan, Tibbi Rəqəmsal Əkiz Sisteminin tətbiqi ölkəmizi dünyanın 20 qabaqcıl ölkəsi sırasına çıxarıb, istifadə olunan məlumat mübadiləsi standartlarına görə isə ilk onluqda qərarlaşdırıb.

Tibbi Rəqəmsal Əkiz Sistemi vahid rəqəmsal platformadır. Bu platforma hər bir vətəndaşın dünyaya göz açdığı ilk andan son nəfəsinə qədər toplanan bütün tibbi məlumatları özündə ehtiva edir. Eyni zamanda, bu platforma yalnız məlumat bazası deyil, həm də tibbi xidmətlər platformasıdır. Buraya həkim qəbuluna yazılma, dərman qəbulunun yaddaşı, xatırlatma mexanizmləri, teletibb sistemləri və hətta valideynlərin övladlarının sağlamlıq vəziyyətini izləməsinə imkan verən funksiyalar daxildir.

Biz bu platformanın inkişafında üç əsas istifadəçi qrupunu görürük. Birinci qrup, təbii ki, vətəndaşlarımızdır. Onlar müraciət etdikləri tibb müəssisəsindən asılı olmayaraq, əldə etdikləri tibbi məlumatların vahid platformada toplanması sayəsində, hətta xaricdə olarkən belə, həmin məlumatları dünyanın istənilən ölkəsində həmkarlarımıza təqdim edərək öz sağlamlıqları ilə bağlı məsləhət ala biləcəklər.

İkinci qrup tibb işçiləridir. Onlar üçün qəbuluna gələn hər bir vətəndaşın sağlamlıq vəziyyətini düzgün, obyektiv və tam şəkildə qiymətləndirmək imkanı yaranacaq.

Üçüncü qrup isə hökumət

# və keyfiyyət standartları əsasında yenilənir



nümayəndələridir. Toplanan məlumatlar əsasında strateji qərarların qəbul edilməsi imkanları genişlənəcək. Əhali arasında yoluxucu və qeyri-yoluxucu xəstəliklərin gələcək inkişafı proqnozları, müəyyən xəstəliklərin daha geniş yayılıb-yayılmaması barədə obyektiv məlumat əldə olunacaq və buna uyğun mühüm strateji qərarlar qəbul ediləcək. Ona görə də Tibbi Rəqəmsal Əkiz Sistemindən yararlanmaq üçün hər bir vətəndaşı bu platformaya aktiv şəkildə qoşulmağa dəvət edirəm».

### İşğaldan azad olunmuş ərazilərdə müasir səhiyyə infrastrukturu formalaşdırılır

Nazirin sözlərinə görə, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işlərinin əsas istiqamətlərindən biri də müasir səhiyyə infrastrukturunun yaradılmasıdır: «Bu, çox vacib məsələdir. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli Ordumuzun azad etdiyi ərazilərdə öz doğma torpaqlarına qayıdan soydaşlarımız üçün faktiki olaraq tam sıfırdan yenidən salınan yaşayış məntəqələrinin, şəhərlərin və kəndlərin bərpasının ayrılmaz hissəsi həmin ərazilərdə səhiyyə sisteminin qurulmasıdır. Səhiyyə sistemi dedikdə biz ilkin səhiyyə xidmətlərindən başlayaraq ikinci səviyyəli xəstəxanalaradək tibb müəssisələrinin tikintisindən danışırıq. İlkin səhiyyə xidmətlərinə kənd tibb məntəqələri, həkim məntəqələri, ailə sağlamlıq mərkəzləri və rayon mərkəzi xəstəxanaları daxildir. Səhiyyə Nazirliyinin öhdəliyinə məhz 8 rayon mərkəzi xəstəxanasının və 10 xüsusi ixtisaslaşmış tibb mərkəzinin tikilməsi daxildir. Bu mərkəzlər tikildikdən sonra Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinə təhvil verilərək əhalimizin xidmətinə təqdim olunacaq.

İlk layihəmiz məhz Şuşada həyata keçirildi. Bildiyiniz kimi, Şuşa Müalicə-Sağlamlıq Mərkəzi tikilərək istifadəyə verildi. Bu, 90 çarpayılıq unikal mərkəzdir. Ümumi çarpayı fondunun 50-si ümumi təyinatlı xəstəxana çarpayılarıdır. Buraya cərrahiyyə, doğum və uşaq şöbələri daxildir. Digər tərəfdən, həmin mərkəzdə sanator-kurort xidmətləri də göstəriləcək. Bunun üçün ayrıca 40 çarpayı ayrılıb. Hələ sovet dövründə Şuşada məşhur «Turşsu» sanatoriyası fəaliyyət göstərirdi və insanların şəfa tapdığı bir məkana çevrilmişdi. Belə qərar qəbul olundu ki, məhz Şuşa Müalicə-Sağlamlıq Mərkəzində məşhur «Turşsu»nun şəfaverici xüsusiyyətləri əhalimizə təqdim olunsun. Hazırda xəstəxana fəaliyyətə başlayıb. İnanırıq ki, qısa müddətdə tam gücü ilə fəaliyyət göstərəcək».

### Azərbaycanda orqan donorluğu sistemi tam şəffaf mexanizm əsasında fəaliyyət göstərir

Səhiyyə naziri xatırladıb ki, Prezident İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli Fərmanı ilə Səhiyyə Nazirliyinin tabeliyində Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzi yaradılıb. Bu qurum ölkədə orqan donorluğu və transplantasiya xidmətinin təşkili ilə məşğul olur və sistemin tam şəffaf şəkildə fəaliyyət göstərməsini təmin edir: «Yarandığı ilk gündən bu xidmətin formalaşdırılması üçün bir sıra ciddi tədbirlər həyata keçirilib. İlk növbədə 10-a yaxın dövlət reyestri hazırlanaraq istifadəyə verilib. Bunlardan bəzilərini sadalamaq istərdim. Könüllü donor olmaq istəyən şəxslərin reyestri, orqan donorluğu və transplantasiyası ilə məşğul olan tibb müəssisələrinin reyestri, həmin müəssisələrdə çalışan mütəxəssislərin reyestri, bu prosesləri tənzimləyən koordinatorların reyestri yaradılıb. Bütün bu altsistemlər bu gün Azərbaycanda həmin xidmətin əlçatanlığını təmin edən mexanizmlərdir.

Orqan donorluğu ölkəmizdə şəffaf və açıq şəkildə təşkil olunub. Səhiyyə Nazirliyi yanında ictimai əsaslarla fəaliyyət göstərən Etika Komissiyası yaradılıb. Orqana ehtiyacı olan hər bir pasiyent və donor həmin komissiyadan keçir, bu prosesin şəffaf və qanunvericiliyə uyğun olduğu təsdiqləndikdən sonra transplantasiya əməliyyatları mütəxəssislərimiz tərəfindən icra edilir.

Koordinasiya Mərkəzinin apardığı maarifləndirmə kampaniyaları nəticəsində bu gün Azərbaycanda 1700 nəfərə yaxın insan könüllü donor olmaq istədiyini rəsmi şəkildə bəyan edib və qeydiyyatdan keçib. Bu göstərici artan dinamika ilə davam edir. Həqiqətən də, vətəndaşlarımızın, cəmiyyətimizin bu prosesə aktiv və düşünülmüş şəkildə qoşulması bizi çox sevindirir».

Nazir bildirib ki, maarifləndirmə tədbirləri yalnız Bakı şəhərində deyil, demək olar ki, ölkəmizin bütün bölgələrində keçirilir: «Əsasən məktəblərdə, universitetlərdə və kolleclərdə maarifləndirmə tədbirləri təşkil olunur. Biz yeni nəslin düşüncə tərzini formalaşdırmaq istəyirik. Həqiqətən də, insan ölümündən sonra orqanını bağışlayaraq kiminsə həyatını xilas edə və ya ömrünü uzada bilirsə, bundan gözəl missiya ola bilməz».

### Bir ildə 352 transplantasiya əməliyyatı olunub

Teymur Musayev məlumat verib ki, ötən ilin statistikasına görə, ümumilikdə 352 transplantasiya əməliyyatı həyata keçirilib: «Bunlardan 111-i gözün buynuz qişasının transplantasiyası olub və onların 24-ü meyit donorlardan həyata keçirilib. Ölkədə 104 böyrək transplantasiyası icra olunub ki, bunlardan 17-si meyit donorlardan götürülən orqanlarla aparılıb. Həmçinin 58 qaraciyər transplantasiyası həyata keçirilib və onların 10-u ölü donorlar hesabına mümkün olub. Bu günədək ölkəmizdə 3 ürək transplantasiyası həyata keçirilib. Eyni zamanda, 77 sümük iliyi transplantasiyası icra olunub. Onlardan 36-sı Azərbaycanda, 41-i isə müxtəlif dövlət proqramları çərçivəsində Türkiyədə həyata keçirilib. Ümumiyyətlə, Azərbaycan bu sahədə regional liderdir. Bizim mütəxəssislərimiz artıq bunu tam sübuta yetiriblər. Bir çox ilklərə məhz Azərbaycanda imza atılıb. Bunlardan biri ölü donordan böyrək transplantasiyası, digəri qaraciyər transplantasiyasıdır. Əsas məsələ isə hər bir həkim, tibblə məşğul olan mütəxəssis üçün ən mühüm və mürəkkəb əməliyyatlardan biri olan ürək transplantasiyasıdır. Bu əməliyyatların üçü də artıq Azərbaycanda həyata keçirilib və biz bu sahədə regional liderik.

Ümumiyyətlə, orqan köçürülməsi əməliyyatları, bunun zirvəsi olaraq məhz ürək transplantasiyası cəmiyyətdə fərqli qəbul olunan bir prosesdir. Cəmiyyətimiz artıq belə yeniliklərə açıqdır, vətəndaşlarımız bunu düzgün dərk edib qəbul edirlər. Biz dəfələrlə terminal durumda olan insanların yaxınlarının belə bu prosesə dəstək olmasının şahidi olmuşuq. Bir tərəfdən, kədərdir, təbii, digər tərəfdən isə sevincdir. Ona görə ki, insanlar öz orqanlarını bəxş edirlərsə, bu, fərqli bir missiyadır, insani missiyadır. İnanırıq ki, belə halların sayı artacaq.

Eyni zamanda, bilirsiniz ki, müasir texnologiyalarda süni orqanların kəşfi istiqamətində də işlər aparılır. Artıq bəziləri sınaqlardan keçirilir. İnanırıq ki, yaxın dövrdə bu sahədə də ciddi bir sıçrayış olacaq və bizim əhalimiz də bundan bəhrələnə biləcək».

Səhiyyə naziri orqan transplantasiyasında effektivlik dərəcəsindən də danışıb, hazırda bu sahədə effektivliyin çox yüksək olduğunu qeyd edib. Onun sözlərinə görə, orqanların düzgün seçilib köçürülməsi və müasir dərman vasitələri transplantasiyadan sonra insanların uzun müddət yaşaya bilməsini təmin edir: «Burada onilliklərdən artıq müddətdən danışırıq. Eyni zamanda, xüsusilə vurğulamaq istəyirəm ki, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzində regionda ilk Göz Bankı yaradılıb. Orada meyit donorlardan əldə olunmuş buynuz qişalar qəbul olunur, qiymətləndirilir, emal olunur və sonra ehtiyacı olan vətəndaşlarımıza köçürülür. Yəni bu proses sürətlənir, infrastruktur tam hazır vəziyyətdədir. Ona görə də belə mürəkkəb, institusional dəstək tələb edən əməliyyatlara və müalicə üsullarına əlçatanlıq ciddi şəkildə artıb».

### «Türk Transplant» vahid informasiya platforması yaradılıb

Teymur Musayev müsahibəsində transplantasiya ilə bağlı bir məsələyə də toxunub: «Azərbaycanın beynəlxalq müstəvidə də transplantologiya üzrə bir təşəbbüsü var idi. Bu, Türk Dövlətləri Təşkilatının üzv ölkələri və müşahidəçi qismində iştirak edən ölkələr arasında "Türk Transplant" adlanan vahid informasiya platformasının qurulması idi. 2023-cü ildə bu təşəbbüs Azərbaycan tərəfindən irəli sürüldü və bütün qardaş ölkələr tərəfindən çox müsbət qarşılandı. Platformanın işə salınması, onun beynəlxalq hüquq və normalara uyğun fəaliyyət göstərməsi və transsərhəd məlumat mübadiləsinin düzgün təşkilinə dair əsas addımlar atılıb. Üzv və müşahidəçi qismində iştirak edən ölkələrin ümumi əhalisi 170 milyonu aşır. İlkin mərhələdə bu, əsasən sümük iliyi transplantasiyasına ehtiyacı olan resipiyentlərin və mümkün donorların vahid reyestrinin formalaşdırılmasını nəzərdə tutur. İlk mübadilələr başlayandan sonra solid orqanlarda ilkin mərhələdə çarpaz transplantasiya nəzərdə tutulur. Bu baxımdan düşünürəm ki, bunun qardaş ölkələr arasında, həqiqətən də, qardaşlıq əlaqələrinin möhkəmləndirilməsində müstəsna rolu olacaq».

*(Ardı səhifə 8-də)*

*(Əvvəli səhifə 7-də)*

# Azərbaycan səhiyyə sistemi rəqəmsallaşma və keyfiyyət standartları əsasında yenilənir

**Azərbaycanda hüceyrə terapiyası mərkəzi qurulur**

Nazir Teymur Musayev tibb sahəsindəki proseslərdən, gözlənilən yeniliklərdən də danışıb. O bildirib ki, Azərbaycanda son dövrlərdə tibb sahəsində bir sıra yeniliklərə imza atılıb: «İlk olaraq, Akademik Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzində yenidən qurulmuş və əhalimizin xidmətinə verilmiş Plastik, rekonstruktiv və üz-çənə cərrahiyyəsi şöbəsini qeyd etmək istərdim. Burada üz-çənə cərrahiyyəsi sahəsində bir sıra regional ilklərə imza atılıb, böyük rekonstruktiv üz və çənə əməliyyatları icra olunub.

Digər tərəfdən, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Plastik, estetik və rekonstruktiv cərrahiyyə klinikası əsaslı təmir olunub, ən müasir avadanlıqlarla təchiz edilib və artıq fəaliyyətə başlayıb. Həmin klinikada çox ciddi rekonstruktiv əməliyyatlar həyata keçirilir. Yanıqlardan və iri həcmli əməliyyatlardan sonra tələb olunan rekonstruktiv əməliyyatlar məhz həmin mərkəzdə həyata keçirilir.

Biz bu iki mərkəzi yaradanda onları məhz klinik baza kimi düşündük ki, rezidentlərimiz layiqli şəraitdə bu ixtisaslar üzrə öz hazırlıqlarını keçə bilsinlər.

Digər məqam Akademik Abdullayev adına Elmi Tədqiqat Kardiologiya İnstitutunda İnvaziv kardiologiya və kardiocərrahiyyə şöbəsinin açılmasıdır. Həmin institutda davamlı olaraq digər müasirləşdirmə prosesləri gedir, yeni avadanlıqlar alınır və quraşdırılır. İnanıram ki, yaxın zamanda yeni bir ilkə də imza atacağıq.

Digər məsələ dünyada aktiv şəkildə tətbiq olunmağa başlayan və bir sıra ağır xəstəliklərin müalicəsində əvəzsiz müalicə üsulu kimi qəbul olunan hüceyrə terapiyasıdır. Biz bunu çinli həmkarlarımızla birgə Azərbaycanda həyata keçirmək üçün hazırda həmin mərkəzi qururuq. İnanırıq ki, yerli mütəxəssislərimiz də bu prosesə töhfə verəcəklər. Çox sevindirici haldır ki, xaricdə oxuyub ölkəmizə dönən həmvətənlərimiz var. Onlar nəinki adi həkim kimi fəaliyyət göstərirlər, əksəriyyətinin hüceyrə terapiyası sahəsində elmi dərəcələri də var. Lazımi infrastruktur qurulmaqdadır və işə salındıqdan sonra şəkərli diabet, uşaq serebral iflici və dağınıq skleroz kimi xəstəlikləri olan insanlar üçün bir ümid yeri yaradılacaq. Düşünürəm ki, biz bu baxımdan regional ilkə də imza atacağıq».

Teymur Musayev bildirib ki, hüceyrə mərkəzinin açılışı üçün bir il yarımdan artıq müddətdə işlər tələb olunur: «Orada müəyyən addımlar atılmalıdır, bu işlər əsaslı yanaşma tələb edir. Texniki infrastrukturun olması, burada çalışan insanların vahid standartlar əsasında fəaliyyət göstərməsi vacibdir. Hər bir yeni üsulu güvənli əllərlə təqdim etmək lazımdır ki, insanların inamı da olsun və həqiqətən də müsbət nəticələri görək».

**Azərbaycanda Çin və Koreya təbabəti diplom kursu açılacaq**

Səhiyyə naziri ənənəvi təbabət məsələlərindən də söz açıb: «Ənənəvi tibbin minilliklərlə tarixi var. Son 10 il ərzində ümumi təbabətdə «inteqrativ tibb» adlanan yanaşma formalaşıb. Bəzən «funksional tibb» adlandırılan inteqrativ tibb anlayışı gündəlik tibbi praktikada fərqli bir mədəniyyətin göstəricisidir. Keçmişi və ya hər hansı bir üsulu inkar etmək yox, onun sübuta əsaslanmış şəkildə tətbiqindən danışmaq lazımdır. Ənənəvi tibb deyəndə bəziləri türkəçarədən danışır, amma bu ayrı məsələdir. Ənənəvi Çin təbabəti özünü tam sübuta yetirmiş və bir sıra xəstəliklərdə, eləcə də xəstəliklərdən əvvəlki mərhələdə effektivliyini sübuta yetirmiş bir üsuldur, tibb yanaşmasıdır. Digər ənənəvi Koreya tibbi və ənənəvi Şərq təbabəti də bu istiqamətə daxildir. Azərbaycan da onun ayrılmaz hissəsidir. Xüsusilə vurğulamaq istəyirəm ki, Azərbaycanın tibb məktəbi bu məsələlərdə həmişə çox açıq olub və bu, sevindirici bir haldır.

Səhiyyə Nazirliyi olaraq bu istiqamətdə bir qədər irəlilədik - Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun nəzdində Çin Xalq Respublikasının Pekin Ənənəvi Çin Təbabəti Universiteti ilə birgə Ənənəvi Çin Təbabəti diplom kursunun təşkili hazırda hazırlıq mərhələsindədir. Kurs ingilis dilində, bir və ya iki illik müddətə olacaq və nəinki azərbaycanlı həkimlər üçün, həmçinin regiondan və beynəlxalq səviyyədən gələn xarici həkimlər üçün də açıq olacaq.

Eyni yanaşma ənənəvi Koreya təbabəti ilə bağlıdır. Hazırda aidiyyəti Koreya rəsmi qurumları ilə danışıqlar aparılır və qısa müddətdə bu proqram da Azərbaycanda tətbiq ediləcək.

Düşünürəm ki, Azərbaycanda fəaliyyət göstərən və bu sahəyə marağı olan ailə həkimləri, baza tibb təhsili olan insanlar və istənilən tibb ixtisasının daşıyıcıları üçün maraqlı olan bu kursların gündəlik praktikalarında tətbiq etdikləri metodları daha da zənginləşdirəcək, seçim imkanlarını genişləndirəcək və vətəndaşlarımız üçün də müxtəlif üsulların tətbiqi ilə bağlı fərqli imkanlar yaradacaq. Bu, daha çox reabilitasiya, xroniki xəstəliklər, xroniki ağrılar və digər istiqamətlərdə geniş və effektiv tətbiq olunan müalicə üsullarıdır. Fitoterapiya, yəni müalicəvi otlarla müalicə metodları da buraya daxildir. Bu, kompleks yanaşmadır. Bunu inkar etmək düzgün deyil. Əhalinin də buna meyli və marağı var. Ən azı, ziyan gətirməsin deyə, bu metodların tətbiqi ilə məhz tibbi diplomu olan insanlar məşğul olmalıdırlar. Tibb təhsili alıb istənilən tibb ixtisasına yiyələnən insanlar üçün bu, onların fəaliyyətini gücləndirən amillərdən biri olsun. Azərbaycanda bizim istər özəl sektorda, istərsə də dövlət sektorunda fəaliyyət göstərən öz mütəxəssislərimiz də var, müəyyən bir məktəb formalaşıb. Düşünürük ki, onların da bu prosesə cəlb edilməsi bizim yerli ənənəvi tibb məktəbinin yeni müstəviyə qaldırılmasına imkan verəcək».

**«Sağlam Radio» sağlam həyat tərzini təbliğ edir**

Səhiyyə naziri son dövrlər trendə çevrilən sağlam həyat tərzinin təbliği və təşviqi məsələlərinə də diqqət çəkib. O qeyd edib ki, sağlam həyat tərzinin təbliği birbaşa nazirliyin vəzifə borcudur: «Vətəndaşların sağlam həyat tərzinin təmin edilməsi «Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası»nın ayrılmaz bir hissəsi, fəaliyyət istiqamətlərindən biridir və bu fəaliyyət birbaşa Səhiyyə Nazirliyinə tapşırılıb. Məhz buna görə də Səhiyyə Nazirliyinin «Sağlam Radio» 93 FM - hamınızın tanıdığı bir radio ilə sıx əməkdaşlığı nəticəsində bu proses fərqli bir səviyyəyə qalxıb. Belə ki, 2024-cü il iyunun 3-də ilk efiri baş tutan vaxtdan radio mütəmadi olaraq həftənin beş günü efirə çıxır. Gündəlik iki əsas veriliş var: biri «Sağlam səhər»dir (08:00-10:00 arası), digəri isə «Sağlam həyat»dır (axşamlar 18:00-20:00 arası). Hər saatın sonunda isə «Sağlam xəbər» rubrikası efirə çıxır. İnanıram ki, izləyicilərimiz, dinləyicilərimiz çoxdur. Həmin rubrikalarda bizim həkim-ekspert mütəxəssislərimiz, elmi tədqiqat institutlarının aparıcı həkimləri, hətta rəhbərləri iştirak edirlər. Biz bu proqramlar çərçivəsində əhaliyə sağlam həyat tərzi barədə düzgün, elmi əsaslı məlumatlar çatdırırıq.

Bilirsiniz ki, müasir medianın inkişafı çox vüsət alıb, istənilən insan, bildi-bilmədi, geniş auditoriyaya sahib ola bilir. Bu şəxs ona inanan auditoriyaya çatdırdığı məlumatın düzgün olub-olmamasının məsuliyyətini dərk etməlidir. Ona görə də "Sağlam Radio" məhz bu baxımdan yalnız peşəkar, öz işini bilən, fəaliyyətini uzun illərdir məhz bu sahəyə həsr etmiş ekspertləri dəvət edir. Onların dilindən çıxan, səsləndirilən məlumat elmi əsaslı məlumatdır. Sağlam həyat tərzi deyəndə istər sağlam qidalanma, fiziki aktivlik, bədən tərbiyəsi, istərsə də adi gündəlik gigiyenik prosedurların necə aparılması və sair olsun - bunların hamısı elmi əsaslı şəkildə əhaliyə çatdırılmalıdır. Xüsusilə vurğulamaq istəyirəm ki, həmin radioda reklam vaxtı heç bir dərman vasitəsinin, tibbi xidmətin və ya tibb mərkəzinin reklamı verilmir. Bu qadağandır. Bu, sırf sağlam həyat tərzinin təbliğatı ilə məşğul olan verilişlərdir. Artıq iki ildir fəaliyyət göstərir, geniş dinləyici auditoriyası var. Bir ili tamam olanda şəxsən özüm də qonaqları oldum. Oradakı yaşanan həyəcanın, marağın hamısının şahidi oldum. Düşünürəm ki, bundan sonra da radionun əhalimizə çatdırdığı və ölkəmizin bütün bölgələrində səsləndirilən məlumatların nəticəsində vətəndaşlarımız öz sağlamlığına daha ciddi və daha məsuliyyətli yanaşacaq. İnsan ona verilən sağlamlığı əvəzsiz, ən böyük sərvət kimi qəbul etməlidir və qorumalıdır. Təbii ki, Səhiyyə Nazirliyi, tibb müəssisələri, həkimlərimiz və tibb işçilərimiz öz missiyalarını yerinə yetirirlər. Amma hər bir vətəndaş özü də öz sağlamlığına sahib çıxmalıdır».

**Yeni səhiyyəyə uyğun tibb işçiləri yetişdirilməlidir**

Səhiyyə naziri süni intellektin tibb sahəsində tətbiqi məsələlərinə də aydınlıq gətirib. O qeyd edib ki, robotik cərrahiyyə regionda ilk dəfə Azərbaycanda, Milli Onkologiya Mərkəzində icra olunub. Həmin əməliyyat bizim cərrahlarımız burada ola-ola, onların həmkarları isə Çində ola-ola həyata keçirilib: «Bu, səhiyyənin, tibb xidmətlərinin yeni səhifəsidir. Bu yeni səhiyyəyə uyğun yeni tibb işçiləri də yetişdirilməlidir. Bu baxımdan, ölkəmizdə fəaliyyət göstərən istər tibb kolleclərinin, istər tibb universitetlərinin və universitetlərin tibb fakültələrinin müstəsna rolu var.

Sabahın tibb işçisindən nə tələb olunacağını demək o qədər də asan deyil. Sadəcə, o, dəyişikliklərə açıq və hazır olan bir insan olmalıdır. Ona görə də qeyd etdiyim bütün tibb təhsili müəssisələrində tibbdə tətbiq olunan İT texnologiyaları tədris edilir, əsaslı İT biliklərinə yiyələnmək üçün şərait yaradılır. Digər tərəfdən isə, tətbiqi elmi ocaqları, laboratoriyaları formalaşdırmaq lazımdır ki, tətbiqi elmin tədris prosesi ilə inteqrasiyası nəticəsində yeniliyə tam açıq olan mütəxəssislər yetişdirilsin. Düşünürəm ki, bu, yalnız kafedralarda və ya universitetlərin hansısa elmi-tədqiqat laboratoriyalarında baş verməməlidir. Biz bunu beynəlxalq əməkdaşlıq şəklində etməliyik. Ona görə də Səhiyyə Nazirliyi davamlı olaraq yerli tibb təhsili müəssisələrini qabaqcıl tibb elmi ocaqları ilə ikili proqramlar, ikili elmi tədqiqatlar formatında birbaşa əlaqələndirməyə çalışır.

Digər məsələ isə süni intellektlə bağlıdır. Bəli, süni intellekt davamlı təkmilləşən bir alətdir. Onun düzgün istifadəsi əhaliyə göstərilən tibb xidmətinin keyfiyyətini, sağlamlığın qorunması naminə tətbiq olunan müalicə üsullarının və digər tədbirlərin güvənli və təhlükəsiz olmasını təmin edən bir vasitədir. Eyni zamanda, bu, bizdən böyük məsuliyyət tələb edən bir alətdir. Ona görə ki, hər birimiz insan faktorunu inkar etməməliyik. Düşünürəm ki, insan təması, hər bir insanın insana etibar etməsi hər kəsin daxilində olan bir inamdır. Ola bilər, nə vaxtsa süni intellekt o səviyyədə olacaq ki, o artıq ciddi şəkildə hüquqi və etik çərçivələrə salınmalı olacaq. Bu da qaçılmazdır. Bu baxımdan, təbabət və təhsil sahələrində bu məsələyə mütləq çox ciddi yanaşılmalıdır. Hər bir ölkənin öz mədəniyyəti, irsi, adət-ənənəsi, etik davranış normaları var. Onların özünəməxsus xüsusiyyətləri var. Mən demirəm ki, biz dəyişmirik, aydındır ki, qloballaşma gedir. Amma bu xüsusiyyətləri də qorumaq lazımdır. Tibb xidmətlərinə gəldikdə isə, süni zəka unikal bir alətdir. Düzgün tətbiq edildiyi halda, düşünürəm ki, misilsiz imkanlar açır. Və biz buna açıq olmalıyıq».

# Səhiyyə naziri ATU məzunlarını təbrik edib





Azərbaycan Tibb Universitetində (ATU) məzun günü keçirilib.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Məzun günündə dövlət və ictimaiyyət nümayəndələri, Milli Məclisin üzvləri, səhiyyə işçiləri, universitetin professor-müəllim heyəti, tələbələr və valideynlər iştirak ediblər.

Tədbirdə çıxış edən səhiyyə naziri Teymur Musayev məzunları təbrik edərək bildirib ki, bu gün onların həyatında yeni mərhələnin başlanğıcıdır. Nazir qeyd edib ki, ölkəmizdə səhiyyə və tibb təhsilinin inkişafı Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətin mühüm istiqamətlərindən biri olub. Onun sözlərinə görə, Ulu Öndər əhalinin sağlamlığının qorunmasını dövlət siyasətinin prioritet məsələsi kimi qiymətləndirir, səhiyyə sisteminin və tibb təhsilinin inkişafına xüsusi diqqət yetirirdi.

Teymur Musayev çıxışında Azərbaycan Tibb Universitetinin yetirməsi olan görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın tibb elminə və tibb təhsilinə verdiyi misilsiz töhfələri də xüsusi vurğulayıb. Bildirib ki, Zərifə Əliyevanın elmi irsi və formalaşdırdığı məktəb bu gün də peşəkar həkim və alimlərin yetişməsində mühüm rol oynayır.

Nazir Prezident İlham Əliyevin rəhbərliyi altında ölkədə səhiyyə sahəsində həyata keçirilən islahatlardan bəhs edib, son illərdə müasir tibb müəssisələrinin yaradıldığını, səhiyyənin maddi-texniki bazasının gücləndirildiyini, rəqəmsal həllərin və keyfiyyətli tibbi xidmətlərin geniş tətbiq olunduğunu diqqətə çatdırıb. O, həmçinin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın səhiyyə işçilərinə göstərdiyi davamlı diqqət və qayğını yüksək qiymətləndirib.

Teymur Musayev qeyd edib ki, səhiyyədə aparılan genişmiqyaslı islahatlar tibb təhsilinin qarşısında yeni hədəflər qoyur: «Süni intellekt, fərdiləşdirilmiş tibb və innovativ müalicə üsulları səhiyyənin simasını dəyişir. Sabahın həkimi yalnız yüksək nəzəri biliklərə malik deyil, dəyişən dünyaya uyğunlaşan, öyrənməyi həyat tərzinə çevirən, yeni texnologiyaları mənimsəyən mütəxəssis olmalıdır. Bu böyük missiyanın davamçıları da sizlərsiniz».

Nazir vurğulayıb ki, ATU-nun hər buraxılışı ölkənin səhiyyə sistemi üçün mühüm hadisədir və yeni məzunlar gələcəkdə vətəndaşların sağlamlığının qorunmasına öz töhfələrini verəcəklər.

Universitetin rektoru, professor Gəray Gəraybəyli də məzunları təbrik edərək onlara peşə fəaliyyətlərində uğurlar arzulayıb. O bildirib ki, gənclərin hərtərəfli inkişafı və keyfiyyətli təhsil alması həm Ümummilli Lider Heydər Əliyevin, həm də Prezident İlham Əliyevin həyata keçirdiyi dövlət siyasətinin əsas istiqamətlərindəndir.

Tədbirdə çıxış edən digər qonaqlar ölkədə tibb təhsilinin inkişafına göstərilən dövlət qayğısından bəhs edib, Azərbaycan Tibb Universitetinin zəngin ənənələrə malik ali təhsil müəssisəsi olduğunu vurğulayıb, məzunların gələcəkdə səhiyyənin inkişafına layiqli töhfələr verəcəklərinə əminliklərini ifadə ediblər.

Mərasimin ən yaddaqalan anlarından biri məzunların Hippokrat andını qəbul etməsi olub. Gənc həkimlər gələcək peşə fəaliyyətlərində insan sağlamlığının keşiyində vicdanla dayanacaqlarına and içiblər.

Daha sonra təhsilini fərqlənmə diplomu ilə başa vuran məzunlara diplomlar səhiyyə naziri Teymur Musayev və universitetin rektoru Gəray Gəraybəyli tərəfindən təqdim olunub.

Qeyd edək ki, 20252026-cı tədris ilində Azərbaycan Tibb Universitetinin 9 ixtisas üzrə 1270 tələbəsi məzun olub.

Tədbir professor-müəllim heyətinin və valideynlərin məzunlara ünvanladıqları xoş arzularla davam edib. Tədbirin bədii hissəsində tanınmış incəsənət nümayəndələri və universitet tələbələri çıxış edib, Hərbi tibb fakültəsinin tələbələri isə vətənpərvərlik ruhunda musiqi nömrələri təqdim ediblər.

# İordaniya Azərbaycanla səhiyyə sahəsində əməkdaşlığın genişlənməsində maraqlıdır



**Səhiyyə naziri Teymur Musayev İordaniya Haşimilər Krallığının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Ömər Bərəkət əl-Naharla görüşüb.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, görüşdə səhiyyə sahəsində ikitərəfli əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri ətrafında ətraflı fikir mübadiləsi aparılıb. Tərəflər tibbi xidmətlərin təşkili, rəqəmsal səhiyyə, tibb elmi, əczaçılıq və qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsi məsələlərini müzakirə ediblər.

Səhiyyə naziri Teymur Musayev Azərbaycan ilə İordaniya arasında müxtəlif sahələrdə əməkdaşlıq münasibətlərinin mövcudluğunu vurğulayıb. Nazir səhiyyə sektorunda da qarşılıqlı təcrübə mübadiləsi, tibbi təhsil, səhiyyə mütəxəssislərinin hazırlanması və elmi-praktik əməkdaşlıq istiqamətlərində əlaqələrin inkişafı üçün əməkdaşlıq imkanlarının mövcud olduğunu qeyd edib.

Ömər Bərəkət əl-Nahar Azərbaycan ilə İordaniya arasında əlaqələrin dinamik şəkildə inkişaf etdiyini vurğulayıb. Səfir səhiyyə sahəsində əməkdaşlığın daha da genişləndirilməsi, qarşılıqlı səfərlərin təşkili və birgə layihələrin həyata keçirilməsinin hər iki ölkə üçün faydalı olacağını bildirib.

Görüşün sonunda tərəflər Azərbaycan və İordaniya arasında səhiyyə sahəsində əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə əminliklərini ifadə ediblər.

# Səhiyyə Nazirliyində BMT Baş katibinin xüsusi elçisi ilə görüş keçirilib

**Səhiyyə naziri Teymur Musayev ölkəmizdə səfərdə olan BMT-nin Baş katibinin Yol Təhlükəsizliyi üzrə xüsusi elçisi Jan Todtun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, görüşdə yol hərəkəti təhlükəsizliyi, yol-nəqliyyat hadisələrinin profilaktikası, qəzalar nəticəsində zərərçəkənlərə göstərilən təcili tibbi yardımın təkmilləşdirilməsi və bu sahədə beynəlxalq əməkdaşlığın inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Qonaqları salamlayan səhiyyə naziri Teymur Musayev ölkəmizdə əhalinin sağlamlığının qorunması, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və yol-nəqliyyat hadisələri nəticəsində xəsarət alan şəxslərə vaxtında və keyfiyyətli tibbi yardımın göstərilməsi istiqamətində həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verib.

Nazir qeyd edib ki, yol təhlükəsizliyi yalnız nəqliyyat sahəsini deyil, həm də ictimai səhiyyə məsələlərini əhatə edən mühüm istiqamətlərdən biridir. Bu baxımdan beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi və qabaqcıl təcrübənin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir.

BMT-nin Baş katibinin Yol Təhlükəsizliyi üzrə xüsusi elçisi Jan Todt Azərbaycanda yol təhlükəsizliyi sahəsində həyata keçirilən tədbirləri yüksək qiymətləndirib və bu istiqamətdə əldə olunan nailiyyətləri vurğulayıb. O, BMT-nin yol-nəqliyyat hadisələrinin qarşısının alınması, insanların həyat və sağlamlığının qorunması məqsədilə üzv dövlətlərlə əməkdaşlığın genişləndirilməsinə xüsusi önəm verdiyini bildir ib.

Görüş zamanı yol təhlükəsizliyi üzrə maarifləndirmə tədbirlərinin gücləndirilməsi, təcili tibbi yardım sisteminin inkişafı, aidiyyəti qurumlar arasında koordinasiyanın artırılması və gələcək əməkdaşlıq imkanları barədə müzakirələr aparılıb.

# Səhiyyə naziri: «Yüksəliş» müsabiqəsi hər bir iştirakçını öz potensialını reallaşdırmağa həvəsləndirir




«Yüksəliş» sadəcə bir müsabiqə deyil. Bu, gələcəyə yatırılan sərmayədir. Hər bir ölkənin ən böyük sərvəti onun insan potensialıdır. İstedad, bilik və davamlı inkişaf istənilən uğurlu dövlətin əsas dayaqlarıdır. Hər bir güclü dövlət yalnız infrastruktur və resurslar üzərində deyil, hər şeydən əvvəl, bilik üzərində qurulur. İnsan kapitalına qoyulan sərmayə hər zaman ən yüksək nəticə verir.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirildiyinə görə, bu fikirləri səhiyyə naziri Teymur Musayev «Yüksəliş» müsabiqəsinin final mərhələsinin açılış mərasimində çıxış edərkən deyib.

Nazir qeyd edib ki, karyera inkişafı vəzifə yüksəlişi ilə yanaşı, ömür boyu öyrənmək, dəyişən dünyaya uyğunlaşmaq bacarığıdır: «İnnovasiyanın, rəqəmsal texnologiyaların, süni intellektin hər bir peşəni dəyişdiyi bugünkü dünyada davamlı öyrənmə qabiliyyəti ən dəyərli bacarıqlardan birinə çevrilir. «Yüksəliş» müsabiqəsi biliklərin sınandığı, fikir mübadiləsinin aparıldığı və gələcək rəhbər şəxslərin ortaya çıxdığı sağlam rəqabət mühiti yaradır. Müsabiqə hər bir iştirakçını öz potensialını reallaşdırmağa həvəsləndirir.

Bu gün burada iştirak edən finalçılarımıza səslənmək istərdim: Bu gün hər biriniz qalibsiniz! «Yüksəliş» müsabiqəsindəki iştirakınız artıq mükəmməlliyə olan sadiqliyinizi göstərir. Bugünkü nəticələrdən asılı olmayaraq, qarşılaşdığınız hər bir çətinlik və öyrəndiyiniz yeni təcrübələr peşəkar inkişaf səyahətinizə töhfə verəcək», - deyə Teymur Musayev qeyd edib.

# Azərbaycan və Rusiya səhiyyə nazirləri əməkdaşlığın inkişafını müzakirə ediblər



**Rusiya Federasiyasının səhiyyə naziri Mixail Muraşkonun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana səfər edib.**

Azərbaycan Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, səfər çərçivəsində qonaq Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub. Daha sonra nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edərək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla anıb.

Səfər çərçivəsində Azərbaycanın səhiyyə naziri Teymur Musayevin Rusiyanın səhiyyə naziri Mixail Muraşkonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşü keçirilib.

Görüşdə Azərbaycan və Rusiya arasında səhiyyə sahəsində mövcud əməkdaşlıq əlaqələri və onların inkişaf perspektivləri müzakirə olunub.

Nazir Teymur Musayev iki ölkə arasında müxtəlif istiqamətlərdə əməkdaşlığın həyata keçirildiyini qeyd edərək, səhiyyə sahəsində də qarşılıqlı əlaqələrin inkişafının əhəmiyyətini vurğulayıb. O bildirib ki, tibb təhsili, tibbi kadrların hazırlanması, ixtisasartırma proqramları, elmi-tədqiqat fəaliyyəti, rəqəmsal səhiyyə, ictimai səhiyyə və digər istiqamətlərdə əməkdaşlığın genişləndirilməsi üçün əlverişli imkanlar mövcuddur.

Rusiya Federasiyasının səhiyyə naziri Mixail Muraşko ölkələr arasında səhiyyə sahəsində əməkdaşlığın inkişafına böyük önəm verdiklərini bildirib. O qeyd edib ki, təcrübə mübadiləsi, birgə elmi-praktik layihələrin həyata keçirilməsi və mütəxəssislər arasında əməkdaşlıq hər iki ölkənin səhiyyə sisteminin inkişafına mühüm töhfə verəcək.

Görüş zamanı tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıblar.

Sonda nazirlər səhiyyə sahəsində əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə əminliklərini ifadə ediblər.

# Səhiyyə Nazirliyi ilə Qlobal Fond arasında gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib



**Səhiyyə naziri Teymur Musayevin QİÇS, Vərəm və Malyariya ilə Mübarizə üzrə Qlobal Fondun Şərqi Avropa və Mərkəzi Asiya üzrə Baş fond portfolio meneceri Valeriya Qrişeçkinanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşü keçirilib.**

Bu barədə Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumatda bildirilir ki, görüşdə Azərbaycan ilə Qlobal Fond arasında səhiyyə sahəsində həyata keçirilən əməkdaşlıq layihələri, əldə olunan nəticələr və gələcək əməkdaşlıq perspektivləri müzakirə olunub.

Teymur Musayev Qlobal Fondun ölkəmizdə həyata keçirdiyi layihələrin ictimai səhiyyənin inkişafına verdiyi töhfəni yüksək qiymətləndirib. O, xüsusilə yoluxucu xəstəliklərlə mübarizə, profilaktik tədbirlərin gücləndirilməsi və səhiyyə sisteminin dayanıqlığının artırılması istiqamətində əməkdaşlığın əhəmiyyətini vurğulayıb.

Valeriya Qrişeçkina Azərbaycanda səhiyyə sahəsində aparılan islahatları və Qlobal Fondun dəstəyi ilə icra olunan proqramların nəticələrini müsbət qiymətləndirib. O, gələcəkdə də qarşılıqlı əməkdaşlığın davam etdirilməsi və birgə layihələrin həyata keçirilməsində maraqlı olduqlarını bildirib.

Görüş zamanı Qlobal Fondun dəstəyi ilə həyata keçirilən proqramların icra vəziyyəti, prioritet istiqamətlər, həmçinin gələcək əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb.

Sonda tərəflər qarşılıqlı maraq doğuran digər məsələləri də müzakirə edərək əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə əminliklərini ifadə ediblər.

# Azərbaycan ilə Şimali Kipr arasında səhiyyə sahəsində əməkdaşlıq genişləndirilir

**Səhiyyə Nazirliyində ölkəmizdə səfərdə olan Şimali Kipr Türk Respublikasının səhiyyə naziri Hakan Dinçyürekin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**

Bu barədə Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumatda bildirilir ki, qonaqları salamlayan səhiyyə naziri Teymur Musayev Azərbaycan ilə Şimali Kipr Türk Respublikası arasında səhiyyə sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyini vurğulayıb, tibb təhsili, rəqəmsal səhiyyə, səhiyyənin idarəolunması və tibb xidmətlərinin təşkili istiqamətlərində əməkdaşlığın genişləndirilməsi üçün əlverişli imkanların olduğunu bildirib.

Nazir ölkədə səhiyyə sistemində həyata keçirilən islahatlar, rəqəmsallaşdırma və tibbi infrastrukturun müasirləşdirilməsi barədə məlumat verib.

Səmimi qəbula görə təşəkkürünü bildirən Şimali Kipr Türk Respublikasının səhiyyə naziri Hakan Dinçyürek səhiyyə sahəsində əməkdaşlığın inkişafına önəm verdiklərini qeyd edib, tibb təhsili, mütəxəssis hazırlığı, rəqəmsal səhiyyə və sağlamlıq turizmi sahələrində təcrübə mübadiləsinin əhəmiyyətini vurğulayıb.

Görüşdə səhiyyə və tibb elmi sahəsində əməkdaşlığın genişləndirilməsi, tibb işçilərinin təlim proqramlarında iştirakı, elmi-tədqiqat və sağlamlıq turizmi üzrə əməkdaşlıq imkanları, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

# Seçenov Universitetinin Bakı filialında məzunlara diplomların təqdimatı mərasimi keçirilib

**İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin (Seçenov Universiteti) Bakı filialında 2026-cı il məzunlarına diplomların təqdimatı üzrə təntənəli mərasim keçirilib.**



Tədbirdə Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev, Rusiya Federasiyasının səhiyyə naziri Mixail Muraşko, Seçenov Universitetinin rektoru akademik Pyotr Qlıboçko, Bakı filialının rektoru professor Əziz Əliyev, tibb müəssisələrinin rəhbərləri, diplomatik korpusun, elm və tibb ictimaiyyətinin nümayəndələri, universitetin professor-müəllim heyəti və məzunların valideynləri fəxri qonaq kimi iştirak ediblər.

2015-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Seçenov Universitetinin məzunu və fəxri professoru Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılmış Bakı filialı bu il 11 yaşını qeyd edir.

Təntənəli mərasim Seçenov Universitetinin Bakı filialının yaradılması və inkişafını, onun tədris və klinik bazasının genişləndirilməsini əks etdirən filmin nümayişi ilə başlayıb.

Fəxri qonaqlar öz çıxışlarında məzunları təhsillərini başa vurmaları münasibətilə təbrik ediblər. Seçenov Universitetinin Bakı filialında mütəxəssis hazırlığının yüksək səviyyəsi, Azərbaycan və Rusiya arasında səhiyyə, tibb təhsili və təbabət elmi sahəsində əməkdaşlığın möhkəmləndirilməsində filialın rolu xüsusi vurğulanıb.

Sonra məzunlara diplomlar təntənəli şəkildə təqdim olunub. Qeyd edilib ki, 2026-cı ildə filialın 45 məzunu təhsilini fərqlənmə diplomu ilə bitirib. Onlardan 9 nəfəri Seçenov Universitetinin fəxri təltifi olan, təhsildə, elmi və ictimai fəaliyyətdə yüksək nailiyyətlərə görə təqdim edilən medalla mükafatlandırılıb.

Ənənəyə uyğun olaraq, məzunlar həkimlik andı içiblər, bununla öz həyatlarını insanlara xidmətə həsr etməyə hazır olduqlarını, tibbi etika prinsiplərinə riayət edəcəklərini, öz peşə biliklərini daim təkmilləşdirəcəklərini təsdiqləyiblər.

# Azərbaycan səhiyyəsində yeni uğur: mürəkkəb mikrocərrahi əməliyyat ilk dəfə tətbiq edilib

**Səhiyyə Nazirliyinin Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Plastik və Rekonstruktiv Cərrahiyyə Klinikasında Azərbaycanda ilk dəfə vaskulyarizasiya olunmuş limfa düyünü transferi (Vascularized Lymph Node Transfer - VLNT) əməliyyatı uğurla həyata keçirilib.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, müasir rekonstruktiv mikrocərrahiyyənin ən mürəkkəb əməliyyatlarından biri hesab olunan bu üsul xroniki limfedemanın, xüsusilə süd vəzi xərçəngi səbəbindən aparılan əməliyyatdan və limfa düyünlərinin çıxarılmasından sonra yaranan yuxarı ətraf limfedemasının müalicəsində tətbiq edilir.

Əməliyyat zamanı xəstənin kürəyinin yuxarı hissəsində yerləşən paraskapulyar nahiyədən qan damarları ilə birlikdə sağlam limfa düyünləri götürülərək qoltuqaltı nahiyəyə köçürülüb. Mikrocərrahi texnologiyalar vasitəsilə diametri bir millimetrdən də kiçik olan damarlar xüsusi mikroskop altında birləşdirilib və köçürülmüş toxumanın qan təchizatı tam bərpa edilib.

Paraskapulyar donor sahə dünyada ən təhlükəsiz donor nahiyələrindən biri hesab olunur. Bu sahədən limfa düyünlərinin götürülməsi aşağı ətrafda limfedema yaranması riskini minimuma endirdiyi üçün son illərdə beynəlxalq praktikada geniş tətbiq edilir.

Vaskulyarizasiya olunmuş limfa düyünü transferinin məqsədi limfa dövranını bərpa etmək, yeni limfa damarlarının əmələ gəlməsini stimullaşdırmaq və zədələnmiş nahiyədə limfa drenajını yaxşılaşdırmaqdır. Bu metod sayəsində xəstələrdə qolun şişkinliyinin azalması, təkrarlayan sellülit epizodlarının sayının əhəmiyyətli dərəcədə enməsi, kompressiya vasitələrindən asılılığın azalması və həyat keyfiyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşması mümkündür. Beynəlxalq elmi araşdırmalara əsasən, uyğun seçilmiş xəstələrdə əməliyyatdan sonra ətraf həcminin 20-60 faiz azalması müşahidə olunur, eyni zamanda, infeksiya epizodlarının tezliyi əhəmiyyətli dərəcədə aşağı düşür. Bu əməliyyat xroniki limfedemanın II-III mərhələsində olan, konservativ müalicədən kifayət qədər fayda görməyən, təkrarlayan dəri infeksiyaları keçirən və limfa damarlarının ciddi zədələnməsi səbəbindən digər mikrocərrahi üsulların effektiv olmadığı xəstələr üçün nəzərdə tutulur.

Azərbaycanda ilk dəfə icra olunan bu yüksək texnologiyalı mikrocərrahi müdaxilə ölkədə rekonstruktiv cərrahiyyənin inkişafında mühüm mərhələ olmaqla yanaşı, limfedemadan əziyyət çəkən xəstələrin müasir və effektiv müalicə üsullarına çıxış imkanlarını genişləndirir.

Səhiyyə Nazirliyinin Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Plastik və Rekonstruktiv Cərrahiyyə Klinikasında bu istiqamətdə əldə olunan uğur ölkəmizdə yüksəkixtisaslı mikrocərrahi xidmətlərin inkişafının növbəti göstəricisi hesab olunur.

# Uşaqların peyvəndlə əhatə olunmasına dair dəyirmi masa keçirilib

**Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzində (İSİM) uşaqlar arasında peyvəndlə əhatə olunmanın qiymətləndirilməsi, əldə olunan nəticələrin təhlili və növbəti addımlara həsr olunmuş dəyirmi masa keçirilib.**



Tədbirdə Səhiyyə Nazirliyinin İctimai səhiyyə və xəstəliklərə nəzarət şöbəsinin müdiri Nəzifə Mürsəlova, Qadın, ana, uşaq və yeniyetmələrin sağlamlığının qorunması sektorunun müdiri Aynurə Zeynalova, İSİM-in direktoru Səbinə Babazadə və Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru Sara Həsənova immunoprofilaktikanın əhəmiyyəti, peyvəndlə əhatə olunma səviyyəsinin artırılması və bu sahədə görülən işlər barədə çıxış ediblər.

Mütəxəssislər ölkədə 6 yaşadək uşaqlar arasında aparılmış sorğunun nəticələrini və müqayisəli təhlilləri təqdim edib, immunlaşdırma proqramının daha səmərəli icrası istiqamətində təklifləri müzakirə ediblər.

# Ölkədə epidemik parotit üzrə epidemioloji vəziyyət sabitdir

**Son günlər sosial şəbəkələrdə Bakı şəhərində epidemik parotit (qulaqdibi) xəstəliyinin geniş yayıldığı ilə bağlı paylaşımlar yayılır.**



Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, həmin məlumatlar mövcud epidemioloji vəziyyəti əks etdirmir. Hazırda ölkədə epidemik parotit üzrə epidemioloji vəziyyət sabitdir. Qeydiyyata alınan yoluxma halları ayrı-ayrı sporadik hallardan ibarətdir, hər hansı epidemiya və ya kütləvi yayılma qeydə alınmayıb.

Mövcud vəziyyət aidiyyəti tibb müəssisələri tərəfindən daim epidemioloji nəzarətdə saxlanılır, zəruri profilaktik və əks-epidemik tədbirlər ardıcıl şəkildə həyata keçirilir.

Epidemik parotit daha çox peyvənd olunmayan və ya natamam peyvənd olunan şəxslər arasında müşahidə edilir. Xəstəlik əsasən hava-damcı yolu ilə - öskürmə, asqırma və yaxın təmas zamanı ötürülür. İnkubasiya dövrü adətən 11-23 gün davam edir.

Xəstəliyin əsas əlamətləri bədən hərarətinin yüksəlməsi, qulaqətrafı tüpürcək vəzilərində şişkinlik və ağrı, çeynəmə və udma zamanı narahatlıq, ümumi halsızlıq, başağrısı və iştahanın azalmasıdır.

Əksər hallarda epidemik parotit yüngül keçir və tam sağalma ilə nəticələnir. Bununla belə, peyvənd olunmamış yeniyetmələrdə və böyüklərdə nadir hallarda müəyyən ağırlaşmaların inkişaf etməsi mümkündür. Bu səbəbdən xəstəliyin qarşısının alınmasında vaxtında peyvəndlənmə xüsusi əhəmiyyət daşıyır.

Azərbaycanda Milli Peyvənd Təqviminə uyğun olaraq qızılca, epidemik parotit və məxmərək əleyhinə kombinə olunmuş (QPM) peyvənd uşaqlara 12 aylığında vurulur, 6 yaşında isə revaksinasiya aparılır. QPM peyvəndi epidemik parotitdən qorunmanın ən etibarlı və effektiv vasitəsidir.

Səhiyyə Nazirliyi valideynlərə övladlarının peyvənd statusunu yoxlamağı tövsiyə edir. Hər hansı səbəbdən peyvənd təxirə salınıbsa və ya buraxılıbsa, yaşayış yeri üzrə tibb müəssisəsinə müraciət edərək həkimlə məsləhətləşmək tövsiyə olunur.

Xəstəlikdən qorunmaq üçün xəstə şəxslərlə yaxın təmasdan çəkinmək, şəxsi gigiyena qaydalarına əməl etmək, əlləri mütəmadi yumaq və qapalı məkanları tez-tez havalandırmaq, xəstəliyə xas əlamətlər müşahidə olunduqda özünümüalicədən çəkinmək, həkimə müraciət etmək və tam sağalanadək kollektivə qayıtmamaq kimi profilaktik tədbirlərə riayət olunması tövsiyə edilir.

Səhiyyə Nazirliyi bir daha bildirir ki, ölkədə epidemik vəziyyət tam nəzarət altındadır. Əhalinin sağlamlığının qorunması məqsədilə epidemioloji monitorinq və operativ nəzarət tədbirləri fasiləsiz davam etdirilir.

Vətəndaşlardan yalnız rəsmi mənbələrə istinad etmələri, sosial şəbəkələrdə yayılan təsdiqlənməmiş məlumatlara inanmamaları və onları paylaşmamaları xahiş olunur.

# Azərbaycan nümayəndə heyəti ÜST tədbirində mükafata layiq görülüb

**ÜST-nin Avropa Regional Bürosunun təşkil etdiyi Səhiyyə Xidmətlərinin Keyfiyyəti və Pasiyent Təhlükəsizliyi üzrə Regional Məktəbdə Azərbaycan nümayəndə heyəti ölkəmizdə səhiyyə xidmətlərinin keyfiyyəti, tibb müəssisələrinin akkreditasiyası və pasiyent təhlükəsizliyi istiqamətində həyata keçirilən islahatları və əldə olunan nəticələri əks etdirən poster təqdim edib.**




Tədbirdə müxtəlif ölkələrdən olan mütəxəssislər səhiyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, pasiyent təhlükəsizliyinin təmin edilməsi və beynəlxalq təcrübələrin paylaşılması istiqamətində fikir mübadiləsi aparıblar.

Azərbaycanın təqdim etdiyi poster «Səhiyyə xidmətlərinin keyfiyyəti və pasiyent təhlükəsizliyi üzrə sistemin gücləndirilməsi sahəsində ən yaxşı poster» nominasiyasında mükafata layiq görülüb. Bu uğur ölkəmizdə səhiyyə sahəsində keyfiyyətin idarə olunması və pasiyent təhlükəsizliyi istiqamətində həyata keçirilən ardıcıl fəaliyyətin beynəlxalq səviyyədə yüksək qiymətləndirildiyini bir daha təsdiqləyir.

Tədbir çərçivəsində Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzi ilə Tacikistanın Tibbi Akkreditasiya Mərkəzi arasında əməkdaşlığa dair Anlaşma Memorandumu da imzalanıb.

# «Böyük Qayıdış» proqramı çərçivəsində Xankəndidə növbəti aksiya keçirilib

**Səhiyyə Nazirliyi «Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı» çərçivəsində həmin bölgələrdə əhalinin sağlamlığının qorunması və tibbi xidmətlərə əlçatanlığının artırılması istiqamətində tədbirləri davam etdirir.**








Qarabağ və Şərqi Zəngəzurda yaşayan əhalinin keyfiyyətli və ixtisaslaşmış tibbi xidmətlərə çıxış imkanlarının genişləndirilməsi məqsədilə həyata keçirilən növbəti səyyar tibbi müayinə aksiyası Xankəndi şəhərində təşkil olunub. Aksiya Səhiyyə Nazirliyinin Elmi Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun mütəxəssislərinin iştirakı ilə keçirilib.

Səyyar tibbi aksiya çərçivəsində travmatoloq-ortopedlər, fizioterapevtlər, pediatr və infeksionist həkimlər tərəfindən sakinlər müayinə olunublar. Müayinələr zamanı dayaq-hərəkət sistemi xəstəlikləri, sümük və oynaq patologiyaları, onurğa problemləri, posttravmatik vəziyyətlər, uşaqların sağlamlıq göstəriciləri və infeksion xəstəliklərlə bağlı diaqnostik qiymətləndirmələr aparılıb.

Müayinələr nəticəsində vətəndaşlara sağlamlıq vəziyyətlərinə uyğun fərdi tibbi məsləhətlər verilib, ehtiyac yarandıqda ilkin tibbi yardım göstərilib. Fizioterapevtlər tərəfindən isə reabilitasiya tədbirləri və hərəkət funksiyalarının bərpasına dair tövsiyələr təqdim olunub.

Aksiya çərçivəsində 80-ə yaxın Xankəndi sakini müxtəlif ixtisaslar üzrə həkimlərin konsultasiya və tibbi xidmətlərindən yararlanıb.

# Tibbi Rəqəmsal Əkiz Sistemi genişlənir

**Bakı Sağlamlıq Mərkəzi (BSM) Səhiyyə Nazirliyinin yaratdığı Tibbi Rəqəmsal Əkiz Sisteminə (TRƏS) uğurla inteqrasiya olunub. Nəticədə, mərkəzdə son illər ərzində toplanmış 3,5 milyondan artıq tibbi məlumat vahid elektron platformaya köçürülərək vətəndaşların fərdi elektron sağlamlıq tarixçələrinə daxil edilib.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, bu inteqrasiya Azərbaycanda rəqəmsal səhiyyə ekosisteminin formalaşdırılması istiqamətində mühüm mərhələdir. BSM-də formalaşan tibbi məlumatlar vahid TRƏS sistemində toplanacaq ki, bu da həm həkimlər, həm də pasiyentlər üçün tibbi məlumatlara çıxış imkanlarını əhəmiyyətli dərəcədə genişləndirəcək.



TRƏS vətəndaşların sağlamlıq məlumatlarının beynəlxalq standartlara uyğun şəkildə toplanması, emalı və idarə olunmasını təmin edən mərkəzləşdirilmiş rəqəmsal platformadır. Bu sistem laborator müayinələri və həkimə təkrar müraciətləri azaltmağa imkan verir. Bundan əlavə, sistem dövlət və özəl tibb müəssisələrində formalaşan aktual tibbi məlumatların həkimlər üçün əlçatan olmasını təmin edir, müalicənin təyin olunması zamanı daha dəqiq klinik qərarların qəbulunu dəstəkləyir, tibbi yardımın fasiləsizliyinə töhfə verir və səmərəliliyini artırır.

BSM-də tibbi xidmətlərin idarəolunması Xəstəxana İnformasiya Sistemi vasitəsilə həyata keçirilir. Bu sistemdəki göstəricilər tibbi məlumat mübadiləsi üzrə beynəlxalq HL7 FHIR standartına uyğunlaşdırılıb. İnteqrasiya nəticəsində mərkəzin arxiv məlumatları vahid sistemə köçürülüb. Bundan sonra isə bütün yeni tibbi məlumatlar real vaxt rejimində avtomatik olaraq TRƏS-ə ötürüləcək.

BSM-in icraçı direktoru Asiman Həsənov qeyd edib ki, TRƏS platformasına inteqrasiya müəssisənin rəqəmsal transformasiyasında mühüm mərhələdir: "Bu sistem pasiyentlərin tibbi məlumatlarının vahid elektron xəstəlik tarixçəsində saxlanılmasını, eləcə də onların həyatı boyu toplanan tibbi məlumatlara operativ və təhlükəsiz çıxışının təmin edilməsini mümkün edəcək. Nəticədə, tibbi xidmətlərin keyfiyyəti və əlçatanlığı əhəmiyyətli dərəcədə artacaq".

TRƏS-ə giriş dövlət rəqəmsal identifikasiya platforması olan "myGov ID" vasitəsilə həyata keçirilir. Bu yanaşma istifadəçilərin etibarlı identifikasiyasını və autentifikasiyasını təmin edir, sistemə təhlükəsiz çıxışı və şəxsi tibbi məlumatların yüksək səviyyədə qorunmasını təmin edir.

Hazırda Səhiyyə Nazirliyi digər dövlət və özəl tibb müəssisələrinin də TRƏS-ə mərhələli şəkildə qoşulmasını davam etdirir.

Bu inteqrasiya Azərbaycanın rəqəmsal səhiyyəsinin inkişafına mühüm töhfə verəcək, həkimlər və vətəndaşlar üçün toplanmış tibbi məlumatlara geniş çıxış imkanları yaradacaq, daha müasir, şəffaf və əlçatan tibbi xidmətlərin göstərilməsinə şərait yaradacaq.

## Başsağlığı

"Tibb qəzeti"nin kollektivi qəzetin əməkdaşı
Ramiz Şıxəliyevə atası
**ƏLƏKBƏR ŞIXƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

## Etibarsız sayılır

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi «Analitik Ekspertiza Mərkəzi» publik hüquqi şəxsinin istifadəsində olan MN № 2407092 nömrəli «İnzibati xəta haqqında Protokol» itirildiyi üçün etibarsız hesab edilsin.

**Baş redaktor:**
**N.MƏCİDOVA**

**Baş redaktorun müavini:**
**S.NƏBİYEVA**

**Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.**

**Təsisçi:**
**Azərbaycan Respublikası Səhiyyə Nazirliyi**

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.**
**Qeydiyyat nömrəsi: B92**

**Ünvan:**
**Həsən bəy Zərdabi küç., 96. 3-cü mərtəbə, 6-cı otaq**
**Tel./faks: (012) 596-06-61**
**E-mail: tibbqazeti@mail.ru**
**www.tibbqazeti.az**

*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.*